| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **21.09.2015** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **309** |
| **ADI** | **Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilməsi haqqında** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 14-10-2015, Nəşr nömrəsi: 223), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-10-2015, Nəşr nömrəsi: 10, Maddə nömrəsi: 1223)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **14.10.2015** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **200.020.020** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | **14201509210309** |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **14.10.2015** |

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi"nin təsdiqi və "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 yanvar tarixli 837 nömrəli Fərmanının ləğvi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 dekabr tarixli 386 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Vəzifə maaşlarına elmi dərəcələrinə görə əlavələrin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 19 aprel tarixli 155 nömrəli qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissəyə "Elmlər" sözündən əvvəl "Azərbaycan Milli" sözləri əlavə edilsin;

1.2. 5-ci hissədə "Respublikası Elmlər" sözləri "Milli Elmlər" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin Əsasnaməsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 23 mart tarixli 47 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 3, maddə 202; 2012, 8, maddə 836) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adına və 1-ci hissəsinə "Elmlər" sözündən əvvəl "Milli" sözü əlavə edilsin;

2.2. həmin qərarla təsdiq edilmiş "Azərbaycan Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin Əsasnaməsi" üzrə:

2.2.1. adına və 1-ci hissəsinə "Elmlər" sözündən əvvəl "Milli" sözü əlavə edilsin;

2.2.2. 2-ci hissəyə "Elmlər" sözündən əvvəl "Azərbaycan Milli" sözləri əlavə edilsin;

2.2.3. 6.1-ci və 6.3-cü bəndlərdə "Respublikası" sözü "Milli" sözü ilə əvəz edilsin.

3. "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu ilə bağlı bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 7 iyun tarixli 94 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 6, maddə 373, 11, maddə 654; 2000, 12, maddə 116; 2001, 1, maddə 70, 5, maddə 350; 2002, 11, maddə 675; 2006, 11, maddə 994; 2009, 10, maddə 846) ilə təsdiq edilmiş "Torpaqların monitorinqinin aparılması qaydaları haqqında Əsasnamə"nin 4-cü hissəsində "Respublikası Elmlər" sözləri "Milli Elmlər" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasında balıqçılıqla bağlı bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 sentyabr tarixli 146 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 9, maddə 556; 2005, 1, maddə 49, 6, maddələr 540, 555, 558; 2006, 4, maddə 370; 2012, 5, maddə 474; 2014, 11, maddə 1508) ilə təsdiq edilmiş "Balıqçılıq su obyektlərinə zərərli təsirin yol verilən normaları"nın 15-ci hissəsində "Respublikası" sözü "Milli" sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 32 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 3 (II kitab), maddə 221; 2003, 6, maddə 342; 2004, 4, maddə 287; 2005, 1, maddə 49, 2, maddə 122; 2006, 2, maddə 185, 10, maddə 903; 2010, 3, maddə 263, 12, maddə 1123) ilə təsdiq edilmiş "Milli arxiv fondunun komplektləşdirilməsi, mühafizəsi və ondan istifadə qaydaları haqqında Əsasnamə"nin 2.11-ci bəndinə "Elmlər" sözündən əvvəl "Milli" sözü əlavə edilsin.

6. "Azərbaycan Respublikasının Torpaq Məcəlləsi ilə bağlı bəzi normativ-hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 79 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 5, maddə 360; 2004, 2, maddə 121; 2005, 1, maddə 49, 6, maddə 558; 2006, 4, maddələr 370, 374, 9, maddə 822, 11, maddə 994; 2008, 2, maddə 132, 5, maddə 432, 6, maddə 586) ilə təsdiq edilmiş "Ekzogen geoloji proseslərə məruz qalmış torpaqlarda mühəndis-texniki və kənd təsərrüfatı işlərinin aparılmasına icazə verilməsi Qaydası"nın 8-ci hissəsində "Respublikası" sözü "Milli" sözü ilə əvəz edilsin.

7. "Azərbaycan Respublikasında heyvanlar aləmi ilə bağlı bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 13 iyul tarixli 117 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 7, maddə 564; 2002, 2, maddə 101; 2004, 9, maddə 745; 2007, 12, maddə 1336; 2008, 2, maddə 132) aşağıdakı dəyişikliklər edilsin:

7.1. həmin qərarla təsdiq edilmiş "Heyvanlar aləmindən ümumi və xüsusi istifadə Qaydaları"nın 3-cü bölməsinin 4-cü hissəsində "Respublikası" sözü "Milli" sözü ilə əvəz edilsin;

7.2. həmin qərarla təsdiq edilmiş "Vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını əldə etmək məqsədi ilə istifadə edilməsi Qaydaları"nın 2-ci bölməsi üzrə:

7.2.1. 5-ci hissədə "Respublikası" sözü "Milli" sözü ilə əvəz edilsin;

7.2.2. 11-ci hissəyə "Elmlər" sözündən əvvəl "Azərbaycan Milli" sözləri əlavə edilsin;

7.3. həmin qərarla təsdiq edilmiş "Zooloji kolleksiyaların yaradılması, zənginləşdirilməsi, saxlanması, istifadəsi, dövlət uçotuna alınması, onlarla ticarət, habelə Azərbaycan Respublikasına gətirilməsi, onun hüdudlarından kənara göndərilməsi və aparılması Qaydaları"nın 2-ci bölməsinin 3-cü hissəsinə "Elmlər" sözündən əvvəl "Azərbaycan Milli" sözləri əlavə edilsin;

7.4. həmin qərarla təsdiq edilmiş "Ekoloji təhlükəsizlik normativləri və vəhşi heyvanların əldə edilməsi Limitləri"nin 3-cü bölməsi üzrə:

7.4.1. 4-cü hissədə, 5-ci hissənin "c" və "ç" bəndlərində "Respublikası" sözü "Milli" sözü ilə əvəz edilsin;

7.4.2. 6-cı hissəyə "Elmlər" sözündən əvvəl "Milli" sözü əlavə edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 iyul tarixli 125 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 7, maddə 572; 2005, 1, maddə 49) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının "Qırmızı Kitab"ı haqqında Əsasnamə"nin 1-ci bölməsinin 3-cü, 4-cü hissələrinə və 5-ci bölməsinin 1-ci hissəsinə "Elmlər" sözündən əvvəl "Milli" sözü əlavə edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Artur RASİ-ZADƏ**

Bakı şəhəri, 21 sentyabr 2015-ci il
309